**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№350/3** **24 noyabr 2022-ci il**

**Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi, nəşri və onların şərhlərinin hazırlanmasına dair hesabat barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 3.1-ci "Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi redaktəsi və nəşri", 3.2-ci "Beynəlxalq Audit Standartlarının yenilənmiş son versiyasının şərhinin hazırlanması və auditorlara çatdırılması" və 3.3-cü "Beynəlxalq Audit Standartlarının yenilənmiş son versiyasının tətbiqinə dair vebinarın keçirilməsi" bəndlərinin və Auditorlar Palatasının sədri tərəfindən 2021-ci il 8 dekabr tarixində təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının "2021-ci il 29 oktyabr tarixli 336/4 nömrəli qərarının 4-cü bəndinin icrası ilə əlaqədar Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin inglis dilindən azərbaycan dilinə tərcüməsinə, redaktəsinə, nəşrinə və şərhinə dair Qrafik"ə uyğun olaraq 2022-ci il ərzində Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi, nəşri və onların şərhlərinin hazırlanmasına dair hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi, nəşri və onların şərhlərinin hazırlanmasına dair hesabat bəyənilsin (əlavə olunur).

2. Məsul icraçıların (Q.Bayramov, N.Talıbov, V.Rəhimov) Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi, nəşri və onların şərhlərinin hazırlanması işləri müsbət qiymətləndirilsin və onlara təşəkkür elan edilsin.

3. Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarına və sərbəst auditorlara tapşırılsın ki, auditor xidmətləri göstərdikləri zaman Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərə ciddi riayət etsinlər.

4. Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin sədri V.Rəhimova və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki:

4.1. “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar”ın təkmilləşdirilməsi zamanı Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklər nəzərə alınsın;

4.2. auditor təşkilatlarında və sərbəst auditorlarda auditin keyfiyyətinə kənar nəzarətin monitorinqi aparılarkən Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tətbiqinə xüsusi diqqət yetirsinlər.

5. Palata sədrinin müşaviri F.Qarayevə və Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, iki həftə müddətində Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi, nəşri və onların şərhlərinin hazırlanması və auditorlara çatdırılması barədə məlumatı təqdim etsinlər.

6. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**